**Aydınoğlu, Tahir**. Ağdam yenidən ağ günlərinə qovuşur / T. Aydınoğlu // Xalq qəzeti. - 2020. - 22 noyabr. - **№ 244**. - S. 3.

**Azərbaycan Ordusunun misli görünməmiş hücum əməliyyatları ilə sentyabrın 27-dən sonrakı 44 gündə Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları və Şuşa şəhərinin, Suqovuşan və Hadrut qəsəbələrnin, 300-dək digər yaşayış məntəqəsinin və bir sıra önəmli yüksəkliklərin sürətlə təcavüzkar Ermənistanın işğalından azad edilməsi azğın düşməni diz çökdürdü. 27 ildən bəri Azərbaycanın haqlı tələblərinə, BMT-nin 4 qətnaməsinə məhəl qoymayan işğalçı ölkənin sərsəm hərbi-siyasi rəhbərliyi bu son sarsıdıcı zərbədən sonra yerdə qalan 3 rayonumuzu müqavimətsiz geri qaytarmağa məcbur edildi. Onlardan biri – Qarabağın qeyrət qapısı sayılan Ağdam noyabrın 20-də Ali Baş Komandan İlham Əliyevin vurğuladığı kimi, bir güllə atılmadan Azərbaycana təslim edildi.**

Ermənistan silahlı qüvvələri 1993-cü il iyulun 23-də Qarabağ münaqişəsinin ilk günlərindən düşmənin qarşısında canlı siperə çevrilmiş Ağdam rayonunun böyük hissəsini Azərbaycanda yaranmış siyasi böhrandan istifadə etməklə və havadarlarının hərtərəfli köməyi ilə işğal etmişdi. O günlərdə xalqın tələbi ilə ölkə rəhbərliyinə yenicə qayıtmış, başı hərbi-siyasi böhranı sovuşdurmağa qarışmış ümummilli lider Heydər Əliyevin gerçəkləşdirdiyi təcili və təxirəsalınmaz tədbirlərlə Ağdamın üçdə bir hissəsi qorunub saxlanıldı, təmas xətti möhkəmləndirildi. Sonrakı günlərdə və aylarda ulu öndərin müstəsna diqqət və qayğısı ilə respublikanın əksər bölgələrinə səpələnmiş Ağdam köçkünləri yerbəyer edildi, düşmənin qarşısında etibarlı sədd yaradıldı, rayonun yerdə qalan hissəsində dağıdılmış kommunikasiyalar bərpa edildi, həyat ahəngi bərpa olundu. Rayon mərkəzinə çevrilmiş Quzanlı qəsəbəsində və 44 kənddə sonrakı illərdə, yarısı məcburi köçkünlər olmaqla, 100 mindən artıq əhali məskunlaşdırıldı. Hər yerdə zəruri quruculuq işləri aparıldı, sosial-iqtisadi həyat yüksəldildi.

Təcavüzkar Ermənistanın beynəlxalq hüquq normalarını, işğal etdiyi Azərbaycan ərazilərini qeyd-şərtsiz tərk etmək barədə BMT-nin 4 qətnaməsini saya salmaması və münaqişəni sülh yolu ilə həll etməli olan ATƏT-in Minsk qrupunun ermənipərəst həmsədrlərinin tərəfkeşliyi digər 6 rayonumuzla yanaşı, Ağdamın da 27 il işğal altında qalması ilə nəticələndi. Lakin ağdamlılar bir an da olsun ərazilərimizin işğaldan azad ediləcəyinə ümidlərini itirmədilər. 5 ay əvvəl Ağdamın işğalının 27-ci ildönümü ilə bağlı qəzetimizə hazırladığımız yazının başlığında da məhz bu inam əksini tapmışdı: “Ağdamlılar doğma torpağa qayıtmağın yolunu milli birliyimizdə, iqtisadi tərəqqimizdə və hərbi qüdrətimizin artmasında görürlər”. Xalqımızın 44 günlük müqəddəs Qarabağ savaşı ağdamlıların bu ümidlərini gerçəyə çevirdi. Bu ümid isə hədsiz yurd sevgisindən, milli qeyrətdən, ölkə rəhbərliyinin müdrik, təmkinli və qətiyyətli siyasətinə dərin inamdan qaynaqlanırdı.

Ağdamın 150 mindən artıq əhalisi, böyük varidatı, güclü sosial-iqtisadi potensialı və çoxəsrlik yüksək mədəni irsi olan bu rayonun başıpozuqluq nəticəsində düşmənin əlinə keçməsi Azərbaycan üçün ciddi itki oldu. Gözəl Qarabağın ürəyi sayılan Ağdamın qədim tarixi abidələri minillik keşməkeşli illərdən keçərək bu günə qədər gəlib çatmışdı. “Ağdam” sözü qədim türk dilində “kiçik qala” deməkdir. Uzaq

keçmişdə bu ərazidə yaşamış türkdilli qəbilələr özlərini müdafiə etmək üçün əsasən kiçik qalalar tikirdilər. Zaman keçdikcə bu adın mənası dəyişib. XVIII əsrin birinci yarısında Qarabağ xanlığının əsasını qoyan Pənahəli xan bu şəhərdə özü üçün ağ daşdan imarət tikdirib. Həmin tikili uzaqdan diqqəti cəlb edən bəyaz görkəmi ilə gəlib-gedənlərə bələdçilik edib. Bu mənada "ağdam" işıqlı, ağ ev deməkdir.

Orta əsrlərin saysız- hesabsız müharibə və çəkişmələri rayon ərazisində insan əli ilə yaradılan hər şeyi dəfələrlə Yer üzündən silsə də, əhali doğma torpağından didərgin salınsa da, bu yerin insanları ulu yurda qayıdıb həyat estafetini davam etdirmişlər. Sonuncu dəfə Nadir şahın qəzəbinə düçar olub İran səhralarına sürgün edilən əhali "Aləm cənnətə dönsə, yaddan çıxmaz Qarabağ" harayında toparlanaraq geri dönmüş, Ağdam ərazisində yeni və güclü Qarabağ xanlığını ucaltmışlar.

Xalqımıza məxsus "Ağ günə çıxasan", "günün ağ olsun" kimi alqışlar Ağdamda həmişə gələcək ağ günlərə inamla səslənmişdir. Ərazidəki nəhəng Şahbulaq əhəng daşı yatağından kəsilən ağappaq mişar daşından salınmış yaraşıqlı Ağdam şəhəri, abad və böyük kənd-qəsəbələr əsrlər boyu mövcud olmuş "qara dam"ların yerində yurd sevgili insanların dilində- ağzında yaşayan "ağ gün" arzularının timsalı kimi nəhəng bir "ağ dam" mənzərəsi yaratmışdı. Ötən əsrin bir- birindən uğurlu gələn quruculuq illəri zəhmətlə torpağın ülfətindən bolluq yaradan ağdamlıları bu "ağ dam"larda ağ günlərə qovuşdurmuşdu.

Aşağı Qarabağla yuxarı Qarabağ arasında keçid, baş qapı sayılan, erməni məkrləri qarşısında möhkəm qala kimi dayanan Ağdam münaqişənin gedişində 5 il misilsiz hünər göstərmiş, 6 minədək şəhid vermişdi. Ermənistan silahlı qüvvələri 1094 kvadratkilometr ərazisi, 165 mindən çox nəfər əhalisi olan Ağdam rayonunun 1 şəhərini 123 kəndinin 79-nu vəhşiliklə işğal etmiş, bu zaman xeyli dinc insan həlak olmuş və girov götürülmüşdür. Erməni vandalları işğaldan sonra Ağdam şəhərini və ətraf kəndləri qarət edib, yandırıb xarabazara döndərmişlər. Bölgə əhalisi bütünlüklə məcburi köçkünə çevrilmiş, sonradan onun bir hissəsi rayonun işğal olunmamış ərazisinə qayıtmaq imkanı qazanmışdır.

Ermənistan silahlı qüvvələrinin Ağdam rayonunu işğal ertməsi və xarabazara çevirməsi ilə bağlı rəsmi statistika təsdiq olunmuş, Birləşmiş Millətlər Təşkilatından tutmuş digər önəmli beynəlxalq qurumlara ünvanlanmış, dünya ictimaiyyətinin geniş dairələrində yayılmış bəyanat və müraciətlərdə Ağdam faciəsinin qanlı və dağıdıcı nəticələri əksini tapmışdır.

Bu mötəbər sənədlərdə göstərilir ki, işğal nəticəsində Ağdam ərazisindəki memarlıq abidələri bütünlüklə talan edilmiş, yandırılmış və məhv edilmişdir. Bütün dünyada yeganə olan "Çörək muzeyi" ilə yanaşı, Ağdam şəhərinin mərkəzində yerləşən qədim memarlıq abidəsi sayılan məscid və onun minarələri də erməni vandalları tərəfindən vəhşicəsinə dağıdılmışdır. İşğaldan əvvəl Ağdamda 1898 müxtəlif obyekt, 17 sənaye, 31 tikinti, 753 ticarət, 397 ictimai iaşə, 220 məişət müəssisəsi, 480 sosial bina, 24 min 446 yaşayış evi, 54 məktəbəqədər, 116 ümumi təhsil müəssisəsi, bir neçə ali məktəb filialı, 13 mədəniyyət evi, 109 klub, muzeylər

fəaliyyət göstərmişdir. İşğalçılar nəzarətlərində olan ərazidə bütün əmlak və varidata sahiblənmiş, yer üstündə nə varsa hamısını dağıtmış və qarət etmişlər.

Artıq bütün bunlar işğalçı Ermənistanın son 30 illik tarixinə bəşəri cinayətlər kimi yazıldı. İşğal edilmiş ərazilərimiz geri qaytarıldı, Qarabağda işıqlı və gözəl sabaha mötəbər təminat yaradıldı.

Noyabrın 20-də Qarabağın qeyrət və zəhmət bölgəsi Ağdam ölkəmizin nəzarətinə verildi.

**Bu münasibətlə Ağdam Rayon İcra Hakimiyyətinin başçısı Vaqif Həsənova zəng vurub gözaydınlığı verdik, illər boyu həsrətlə gözlədiyimiz bu tarixi gün münasibətilə bütün ağdamlılara təbriklərimizi çatdırdıq. Rayon rəhbəri isə böyük sevinc və öyünclə bildirdi:**

– Ağlını itirmiş düşmənin törətdiyi qanlı faciələr, haqsızlıqlar, vandallıqlar İlahi bir hökmlə, haqqın basılmaz-yenilməz məntiqi ilə, Prezident, Ali Baş Komandan İlham Əliyevin sonsuz yurd sevgisi və möhkəm iradəsi, Silahlı Qüvələrimizin qüdrəti və hünəri ilə, nəhayət, qayıdıb bu başabəla qonşunun öz başına töküldü. Qarabağ məğlubiyyətinin Ermənistanı başdan-başa matəmgaha çevirdiyi, dünya ermənilərini ağır yasa batırdığı günlərdə Azərbaycan toy-bayram içindədir.

Xalqımıza, eləcə də bizə bu xoşbəxtliyi Prezident Ali Baş Komandan İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə qəhrəman Azərbaycan əsgəri və zabiti bəxş etdi. Bu misilsiz zəfərin nəticəsidir ki, cənab Prezidentin Ağdamın işğaldan azad edilməsi münasibətilə xalqa müraciətində dediyi kimi, rayonun işğal altında olan əraziləri bir güllə atılmadan geri qaytarıldı.

Bu tarixi bir rəşadət, möcüzəli bir nailiyyətdir. Bu münasibətlə noyabrın 20-də 28 il düşmən nəzarətində qalmış – qarət edilib, yandırılıb başdan-başa xarabazara döndərimiş, lakin bu müdhiş mənzərəsi ilə də bizim üçün yaralı vətənimizin bir parçası kimi misilsiz dərəcədə doğma, əziz olan Ağdam şəhərinin mərkəzində bayraqasma mərasimi keçirildi. Dövlət himnimiz səsləndi, hərbçilərimiz dövlət bayrağımızı ucaltdılar. Ağdamın dünənin müqəddəs yadigarı Gövhər ağac məscidində cümə namazı qılındı. Göstərdiyi böyük iltifata görə ulu Yaradana şükranlıq edildi, Allahdan şəhidlərimizə rəhmət diləndi, Ali Baş Komandan İlham Əliyevə, ordumuzun hər bir əsgər və zabitinə möhkəm cansağlığı arzulandı.

Bütün xalqımız kimi, ağdamlılar da qazanılmış böyük qələbəyə, düşməndən intiqam alındığına görə Prezident İlham Əliyevə sonsuz minnətdarlığını bildirirlər.

Ağdamlılar torpaqlarımızın işğaldan azad edilməsində iqtisadi qüdrətimizin artmasının və milli birliyimizin həlledici amil olduğunu yaxşı anladıqlarından həmişə ölkəmizdə məhsul bolluğu yaradılmasına, dövlətimizin daxili və xarici siyasətinin dəstəklənməsinə öz layiqli töhfələrini veriblər. Ağdamlılar döyüş meydanında və arxa cəbhədə də öz hünərlərini göstərməklə üzlərini ölkə qarşısında ağ, başlarını uca elədilər. Döyüşlər vaxtı hər gün yaşayış məntəqələrimizə yüzlərlə mərmi düşsə də, həlak olanlar, yaralananlar, evləri dağılanlar olsa da heç kəs rayonu tərk etmədi, əhali ordunun arxasında möhkəm

dayandığını göstərdi, mümkün olan yerlərdə məhsulunu topladı. Düşmən təslim olandan sonra isə təmas xəttinə yaxın yerlərdə yarımçıq qalmış məhsul toplanışı davam edir.

**Kənd Təsərrüfatı Nazirliyinin ictimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsinin müdiri Vüqar Hüseynovdan öyrəndik ki, Ağdam rayonunda, keçmiş təmas xəttinin sıfır nöqtəsində yerləşən kəndlərində yarımçıq qalmış pambıq və digər bitkiçilik məhsullarının sürətlə yığılması üçün atəş dayanandan sonrakı günlərdə rayon rəhbərliyi ilə birlikdə zəruri tədbirlər gerçəkləşdirilib. Rayondan yenicə qayıtmış nazirlik rəsmisi bildirdi:**

– Qarabağda döyüş əməliyyatları başlayandan sonrakı günlərdə Tərtər və Ağdam rayonlarında, Füzuli, Ağcabədi və Bərdənin atəş xəttinə yaxın ərazilərində pambıq yığımını həyata keçirmək çətinləşmişdi, bəzi yerlərdə isə dayanmışdı. Azərbaycan Ordusunun zəfəri sayəsində artıq təmas xətti anlayışı keçmişdə qalıb. Noyabrın 10-dan sonra həmin ərazilərdə pambıq yığımına start verilib. Yığımın vaxtında başa çatması üçün bu rayonlara əlavə kənd təsərrüfatı texnikaları göndərilib. Bu ərazilərdə məhsul yığımı yarımçıq qalmış fermerlərə hər cür kömək göstərilir.

Mirəşelli kəndində pambıq yığımı həyata keçiriləndə Ağdam Dövlət Aqrar İnkişaf Mərkəzi fermer koordinasiya şurasının üzvü, pambıqçı Eldar Qasımovun öz sahəsinin hər hektarından 40 sentnerdən çox pambıq götürməsi buraya gəlmiş jurnalistlərlə birlikdə hamımızı sevindirdi. Nəzərə alaq ki, fermer bu bol məhsulu düşmənin atəş nöqtəsinə hədəf olaraq becərib-yetişdirib. Digər fermerlərin sahələrində də yığım sürətlə davam etdirir. Bugünədək Ağdam rayonunda orta məhsuldarlıq 23,69 sentnerə çatıb.

İşğaldan əvvəlki illərdə Ağdam pambıqçıları hər il ölkəyə 30 min ton pambıq verirdilər. Bu, ildə 80 min ton üzümlə yanaşı, böyük əmək hünəri idi. Bu varidatın qazancı Ağdamın əksər yaşayış məntəqələrini yüksək səviyyədə abadlaşdırmağa, əhalinin ehtiyacsız yaşamasına imkan yaratmışdı. İndi düşmən bayquşlarının xaraba qoyduğu o yerlərdə vaxtilə ağdamlılar fəxr etdikləri ağ evlər ucaltmışlar. İnanırıq ki, rayonun münbit torpaqları, hünərli, zəhmətsevər insanları dövlətin fəal yardımı və öz səyləri ilə yeni ağ evlər tikəcək, yenidən ağ günlərə qovuşacaqlar.

Bu yerdə əlavə ki, 28 il əvvəl ağ günlərinin üstünə qara yağmurlar yağmış ağdamlıların əli həmin günlərdə xalqın tələb və hökmü ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin əlinə yetişəndən sonra dinc həyata dönüşün, yeni ağ günlərə inamın əsası qoyuldu. Qısa müddətdə rayon ərazisində etibarlı müdafiə səddi yaradıldı. Zəruri kommunikasiyalar bərpa edildi. Ev-eşiyindən perik düşmüş on minlərlə əhali hissə- hissə öz ev-eşiyinə qaytarıldı.

Sonrakı illərdə Prezident İlham Əliyevin xoş məramı ilə rayon ərazisində müasir qəsəbələr salındı, ağır şəraitdə yaşayan on minlərlə ağdamlı məcburi köçkünün qara günlərinə son qoyuldu. Ağdamın yeni ağ günlərinə işıq salan ümid çırağı yandırıldı. Nəhayət, Ağdam işğaldan azad edildi. Ağdam yenidən ağ günlərinə qovuşur.

***Tahir AYDINOĞLU, “Xalq qəzeti”***